# Karvan öz yolundadır

Müstəqil Azərbaycanımızın 2015-ci il tarixində Birinci Avropa Oyunları ən mühüm və möhtəşəm hadisə kimi uzun illər yaddaşlardan silinməyəcəkdir. Bu möhtəşəm tədbirin yaddaşlarda xoş xatirə kimi qalmasını bir sıra amillər şərtləndirir. Birinci amil: Avropa Oyunları ilk dəfə keçirilirdi və belə nəhəng beynəlxalq tədbir ilk olduğu üçün sözsüz ki, onun təşkili üçün müəyyən təcrübə yox idi.

Hər şey yeni, yaradıcılıqla yaradılmalı idi. Çünki bu ilk təcrübənin yaxşı cəhətləri Avropa Oyunlarının gələcək mərhələlərində istifadə olunacaq. İkinci amil: dünyanın siyasi iqtisadi və mədəniyyət mərkəzi olan Avropanın belə mühüm bir tədbiri Avropa və Asiyanın qovuşağında olan, hələ çox gənc—cəmi müstəqil dövlət kimi 24 yaşlı müsəlman ölkəsində—Azərbaycanda keçirilirdi. Bax, elə bu ikinci amil bir sıra Avropa dövlətlərində qısqanclıqla qarşılanırdı. Avropa dövlətləri, xüsusən, həmin ölkələrdə yerləşən, erməni lobbisinə xidmət edən qeyri-hökmət təşkilatları və mətbuat orqanları Azərbaycana qarşı qərəzli kampaniyalarını daha da gücləndirdilər. Bütün vasitələrlə Avropa Oyunlarının keçirilməsinə kölgə salmağa çalışdılar. Təəssüf ki, dunyada sülhü, barışı, dostluğü qorumalı və yaymalı olan Avropa İttifaqının, Avropa Şurasının bir çox qurumları da erməni lobbisinin əlində alətə çevrildilər. Avropa oyunları ərəfəsində Avropa İttifaqının və Avropa Şurasının tutduğu qərəzli mövqe göstərdi ki, bu qurumlar da əslində okeanın o tayından, ABŞ Dövlət Departamentindən idarə olunur və müstəqil deyillər. Çünki məhz həmin ərəfədə ABŞ Dövlət Departamenti də yaydığı hesabatda Azərbaycan haqqında qərəzli mövqeyini bir daha ortaya qoymuşdu. Avropa oyunlarının açılış mərasiminə bəzi aparıcı Avropa dövlətlərinin başçılarının qatılmaması da okeanın o tayından verilən tapşırığın nəticəsi idi. Başda ABŞ olmaqla qərb dövlətlərinin oda, alova, səfalət və xaosa qərq etdiyi yaxın və orta Şərqin lap yaxınlığında sabit, sakit, sürətlə inkişaf edən Azərbaycan kimi bir dövlətin olması və Avropa Oyunları vasitəsilə ölkəmizdə butun sahələrdə misilsiz nailiyyət əldə olunmasının dünyaya çatdırılması erməni lobbisinə xidmət edən bir sıra dövlətlər və beynəlxalq qurumları narahat etməyə bilməzdi. Məhz bu səbəbdən Azərbaycana qarşı qərəzli iftira kampaniyası Birinci Avropa Oyunları öncəsi və oyun dövründə özünün ən yüksək səviyyəsinə yüksəlmişdi. Ancaq, bütün bu iftira kampaniyası bədxahlarımızın nəzərdə tutduğu effekti vermədi. Əksinə Azərbaycan xalqını daha möhkəm birliyə, ayıq-sayıq olmağa səfərbər etdi. Biz eyni zamanda dostlarımızı və düşmənlərimizi tanıdıq.

Bütün bu hücümlara baxmayaraq I Avropa Oyunlarının təşkilatı işləri uğurla tamamlandı və oyunlar misli görünməmiş bir möhtəşəmliklə keçdi.

Yüksək dəqiqliklə təşkil olunmuş bu nəhəng tədbirin möhtəşəmliyini rəqiblərimiz belə etiraf etməli oldular. Bu günlərdə Tbilisidə keçirilən Avropa Gənclərinin Olimpiadasının açılış mərasimində baş verən çatışmazlıqlar göstərdi ki, belə nəhəng tədbirlərin heç bir nöqsansız keçirilməsi çox çətin prosesdir. Azərbaycanımız bu çətin prosesin öhdəsindən layiqincə gəldi.

Bütün bu uğurlar Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin yüksək diqqət və qayğısı, ölkəmizin birinci xanımı Mehriban Əliyevanın ilk Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri kimi yorulmaz fəaliyyətinin nəticəsində mümkün oldu.

Bəli, I Avrorpa Oyunları xalqımız və dövlətimiz üçün tarixi sınaq idi. Biz bu sınaqdan ləyaqətlə çıxaraq Avropaya və dünyaya özümüzü, böyüklüyümüzü, sülhün və dostluğun tərəfdarı olduğumuzu nümayiş etdirdik.

Avropa Oyunları ərəfəsində və dövründə Azərbaycanın bütün sahələrdə əldə etdiyi nailiyyətlər dünyaya nümayiş etdirildi.

I Avropa Oyunları uğurla bitdi və tarixə qovuşdu. Avropanın oyunları və Azərbaycana qarşı tutduğu qərəzli mövqe tarixə qovuşacaqmı? Bunu zaman göstərəcəkdir. Bütün təzyiqlərə, ikili standartlara və qərəzli mövqelərə baxmayaraq Azərbaycan öz müstəqil siyasət strategiyasını uğurla davam etdirir. Necə deyərlər, karvan öz yolundadır...

**Qüdrət SƏMƏDOV.**

# Dərman vasitələrinin qiymətlərində tənzimlənmə başlandı

Məlum olduğu kimi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci ilin ilk rübünün və birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclaslarında cənab Prezident tərəfindən dərman preparatları bazarında xaotik vəziyyətin müşahidə olunduğu, ədalətsizliklərin mövcudluğu, qiymətlərin süni şəkildə qaldırılması hesabına başqa ölkələrlə müqayisədə Azərbaycanda bəzi dərmanların qiymətlərinin bir neçə dəfə baha olduğu və insanların bu dərmanları almağa məcbur olduqları vurğulanmışdır. Dövlət başçısı bu pozuntulara son qoyulması və sentyabr ayından gec olmayaraq məsələnin yeni müstəvidə həlli barədə tapşırıqlar vermişdir. Verilmiş tapşırıqlar nəticəsində Azərbaycan Respublikası Nazirlər Kabineti və Azərbaycan Respublikası Tarif (qiymət) Şurası tərəfindən bu barədə dərhal tədbirlər görülməyə başlanmış, Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası tərəfindən dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətləndirilməsinin tənzimlənməsi barədə 30 iyul 2015ci il tarixli qərar imzalanmışdır. Qərarla dövlət qeydiyyatına alınmış dərman vasitələrinin topdan və pərakəndə satış qiymətləri təsdiq edilmişdir.

Təsdiq edilmiş qiymətlər 2015-ci il sentyabrın 15-dən qüvvədədir. Həmin tarixdən etibarən qərara əlavə 1 cədvəlində göstərilən 25 təsiredici maddələr (kombinə olunmuş dərman vasitələri istisna olmaqla) üzrə 250-dən artıq dərman vasitələrinin qiymətləri təsdiq olunmuşdur. Qiymətləri təsdiq edilməyən dərman vasitələrinin satışı həyata keçirilə bilməz. Qərara əlavə 1-də göstərilən təsiredici maddələr üzrə qiymətləri təsdiq edilməyən digər dərman vasitələrinin qiymətlərinin təsdiqlənməsi üçün sənədlərin (bəyannamələrin) qəbulunun son müddəti 2015-ci il avqust ayının 10-dək müəyyən edilmişdir.

Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətləri üzrə əlavə 2 cədvəlində dərman vasitələrinin ticarət adı, təsiredici maddənin adı, təsiredici maddənin dozası, farmasevtik forması, ticarət qablaşdırması, qablaşdırma miqdarı (№), istehsalçı şirkət, ölkə, topdansatış qiyməti (ƏDV ilə manat) və pərakəndə satış qiyməti (ƏDV ilə manat) göstərilmişdir.

Qeyd etmək olar ki, dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi mərhələlərlə həyata keçiriləcəkdir. Hər dəfə dərman vasitələrinin qiymətləri təsdiqləndikcə Tarif (qiymət) Şurasının müvafiq qərarı, qiymət cədvəli və qiymətlərin qüvvəyə minməsi tarixi barədə kütləvi informasiya vasitələrində məlumat veriləcəkdir. İlk qərar və qiymətlər iyulun 31-də mətbuatda dərc olunmuşdur.

# Həmkarlar ittifaqı ən nüfuzlu və ən kütləvi təşkilatdır

Azərbaycan ikinci dəfə müstəqillik qazandığı ilk illərdən dövlət vətəndaşların normal iş fəaliyyətini, sağlamlığını, istirahətini təmin edən bir sıra islahatlar həyata keçirmişdir. Ulu öndərimiz Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə xalqın sosial problemlərinin həllinə həmişə xüsusi diqqət və qayğı ilə yanaşmışdı. Böyük şəxsiyyət vətəndaşların rifah halının yaxşılaşdırılması, onların istirahət və müalicəsinin yüksək səviyyədə təşkili üçün mühüm qərarlara imza atmışdır. Bu gün ölkə başçısı İlham Əliyev ulu öndərimiz Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş sosial strategiyanı uğurla həyata keçirir. Prezidentin diqqət və qayğısı sayəsində müxtəlif idarə və müəssisələrdə çalışan yüz minlərlə insanın normal istirahət etməsi, məzuniyyət dövrünün mənalı keçməsi üçün sanatoriya və kurort müəssisələri müasir tələblərə uyğun yenidən qurulmuş, istirahət ocaqlarının səmərəli fəaliyyəti üçün geniş imkanlar açılmışdır. Cənab İlham Əliyevin «Azərbaycan kurortları» Dövlət Proqramı haqqında 27 fevral 2007-ci il tarixli sərəncamında sahə həmkarlar ittifaqı komitələrinin qarşısında çox mühüm vəzifələr qoyulmuşdur.

Bu gün Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Qəbələ Rayon Komitəsi də öz fəaliyyətini ölkə başçısının müəyyənləşdirdiyi strategiya əsasında və mövcud qanunlar çərçivəsində həyata keçirir. Rayon komitəsinin qarşısında duran ən önəmli məsələlər müəllimin əmək və məişət şəraitini, istirahətini səmərəli təşkil etməkdən ibarətdir. İnsan amilinin irəli çəkildiyi bir dövrdə həmkarlar ittifaqı komitələri bu işdə ön cərgədə dayanırlar. Bu baxımdan rayonumuzun təhsil sistemində son 5-6 il ərzində həyata keçirilən kompleks tədbirlər təqdirəlayiqdir. İttifaq üzvlərinin daha yaxşı işləməsi üçün və gənc nəslin təlim-tərbiyə işinin səviyyəsinin yüksəldilmsinə nail olmaq üçün təhsil sistemində konkret addımlar atılmış, təhsil ocaqlarında çalışan müəllimlər üçün geniş və əlverişli şərait yaradılmışdır. Ən yaxşı haldır ki, son illərdə rayonun ən ucqar, hətta ən kiçik olan Zirinq, Solquca, Yengicə, Kiçik Pirəlli, Kötüklü kimi kəndlərində də ən müasir standartlara cavab verən yeni məktəb binaları tikilib istifadəyə verilmiş, bütün məktəblərdə müəllimlər və şagirdlər üçün işgüzar şərait yaradılmışdır.

**(Ardı 6-cı səhifədə).**